Tarix və onun problemləri, №3 2009

**ÜLKƏR ƏLİYEVA**
*AMEA Z.M. Bünyadov adına Şərqşünaslıq institutunun aspirantı*

# ABŞ -DA 2000-Cİ İLİN PREZİDENT SEÇKİLƏRİ ƏRƏFƏSİNDƏ RESPUBLİKAÇILARIN XARİCİ SİYASƏT PLATFORMASINDA ABŞ - ÇXR MÜNASİBƏTLƏRİ

İlk növbədə qeyd edək ki, ABŞ-da ikipartiyalı sistemin mövcudluğuna baxmayaraq, əslində hakimiyyət dəyişikliyi zamanı bu dövlətin xarici siyasət strategiyası dəyişilmir. Sadəcə bu strategiyanın həyata keçirilməsi formasında müəyyən dəyişikliklər olur. Görkəmli tədqiqatçı Şiryayev bu barədə yazır ki, ilk baxışda hökümət dəyişikliyi ilə əlaqədar olaraq, ABŞ-ın xarici siyasət kursunda tez-tez, hətta sanki köklü dəyişikliklər edildiyi görünür. Hər bir yeni administrasiya xarici siyasətdə yeni eranın başlandığını elan edir. Ancaq bütün bu dəyişikliklərin əsasında xarici siyasətdəki varislik durur. Fikr ayrılıqları və bəzən kəskin toqquşmalar xarici siyasətin strateji məqsədlərinə deyil, bu məqsədlərə nail olmaq metodlarına aiddir. Bu məqsədlər isə Amerikanın xüsusi missiyasının reallaşdırılması (belə ki, ABŞ-ın xarici siyasəti daim ideoloji «çalarlarla boyadılmışdır» və Amerikanın xüsusi missiyasına inam bu ölkənin xarici siyasətinin ideolojiləşdirilməsinə səbəb olmuşdur (13,s.24)), dünyada liderlik, ən mükəmməl sistemi bütün dünyaya yaymaqdan ibarətdir (13,s.45). Ona görə də vəziyyətdən və zamandan asılı olaraq, doktrinalar dəyişə bilər, onlara ənənəvi strateji məqsədlərin təsiri isə daim özünü göstərir.

Respublikaçılar partiyasına gəldikdə isə, bu partiya dimi üzvlük, proqram və nizamnaməyə malik deyil. Partiyanın bütövlükdə siyasi kredosunu əks etdirən əsas sənədi hər bir prezident seçkisi ərəfəsində partiya qurultaylarında qəbul olunan seçkiqabağı proqramdır (12). Odur ki, C. Buş administrasiyası dövründə Respublikaçıların xarici siyasət platforması Buşun seçkiqabağı proqramı və doktrinasında öz əksini tapmışdır.

Kiçik Corc Buşun seçkiqabağı proqramının xarici siyasət bölməsi açıq və sistemli şəkildə təqdim olunmamışdı. Seçkiqabağı kampaniyanın ilk dövründə – 1999-cu ildə və seçkilərin keçirildiyi ildə C. Buşun komandasının Rusiya, Çin, İran, Yaxın Şərq ölkələri, Yuqoslaviya kimi ölkələrə münasibətdə konkret siyasi istiqaməti yox idi. Seçkilər ərəfəsində Buşun əsas siyasi-strateji mövzusu hər bir Amerika vətəndaşının beynəlxalq terrorizm qarşısında təhlükəsizliyini təmin etmək – Milli Raketdən Müdafiə sisteminin yaradılması idi. Həm raketdən müdafiə sistemləri, həm də Asiyada regional raketdən müdafiə yaradılması təşəbbüsü Amerikanın xarici siyasəti və ilk növbədə Çinə münasibətdə mühüm əhəmiyyət kəsb etsə də, Buşun variantında ABŞ-ın Çin siyasətinin – Tayvan, ikitərəfli təhlükəsizlik məsələləri, iqtisadi qarşılıqlı təsir və humanitar sahədə dialoqa dair bölmələri işlənib hazırlanmamışdı (10,s.242). Buşun üstündə xüsusi durduğu raketdən müdafiə sisteminə gəldikdə, ABŞ-da ixtisaslı hərbçilər üçün müasir müharibə – qanadlı raketlər və dəqiq zərbə deyil, müharibə aparmaq üçün zəruri olan külli miqdarda təchizat, hərbi sursat anbarları, hərbi bazalar, maddi-texniki təchizat vasitələri və hərbçilərin yerləşdirilməsidir. XX əsrin sonu – XXI əsrin əvvəllərində ABŞ-ın strategiyası var-qüvvə ilə öz hərbi bazalarını saxlamaq və onları rəqib raket hücumundan müdafiə etməkdən ibarətdir. Onu da əlavə edək ki, hazırki dövrdə raketdən müdafiə sistemlərinə, onların yerləşdirilməsi, bu sistemlərin fəaliyyətini təmin etmək üçün peyklərə külli miqdarda vəsait sərf olunur. Deməli, qlobal hökmranlığın qiyməti də yüksəlməkdədir. Doğrudur, hələlik, Yaponiya istisna olmaqla Asiya ölkələri hərbi texnoloji

cəhətdən Qərbə meydan oxuya bilməsə də, yaxın gələcəkdə belə hallar adiləşəcəkdir (6,s. 11-15). Buş komandasının seçkiqabağı kampaniyasının xarici siyasət problemlərinə böyük əhəmiyyət verməməsinin daha bir göstəricisi seçkilərə kimi bu komandanın tərkibində təyin olunmuş R.Çeyni, K. Pauell və K. Rays istisna olmaqla, xarici siyasət sahəsində samballı və stabil ekspert və analitiklər qrupunun olmaması idi. Hətta seçkilərdə qələbədən sonra da kiçik Corc Buş bu qrupu çox ləng formalaşdırdı (10,s.242).

Hakimiyyətə gəldikdən sonra da sələfini təkrarlamaq istəməyən Buş öz xarici siyasət doktrinasını elan etməyə tələsmirdi. 11 sentyabr hadisələri baş verməsəydi, Birləşmiş Ştatlar öz xarici siyasət vəzifələrini (B.Klinton administrasiyası kimi) əsaslardan – NATO üzrə müttəfiqləri və Yaponiya, Rusiya, Çin və b. ilə münasibətlərdən başlayaraq həll etməli idi. Ancaq 2001-ci il, 11 sentyabr hadisələrindən dərhal sonra prezident Buş tələsik olaraq, həm də tam başqa bir ardıcıllıqla öz xarici siyasət vəzifələrini elan etdi. Ön plana beynəlxalq terrorizmlə mübarizə və terrorizmlə əlaqəli olan ölkələr – Əfqanıstan və Talib rejimi, İrak və Səddam Hüseyn rejimi, Koreya Xalq Demokratik Respublikasıvə Kim İr Çen rejimi, İran ilə problemlər çıxarıldı.

Demək olmaz ki, bu C. Buşun 2000-ci il seçkiləri ərəfəsində irəli sürdüyü vəzifələrdə dəyişiklik edilməsi idi. Onun seçkiqabağı kampaniyasının digər ölkələrlə münasibətlərə dair hissəsi qeyri-müəyyən və maraqsız idi. Ona görə də seçkilər zamanı amerikalılar C. Buşun xeyrinə aydın seçim etməmişdilər və Florida ştatının qubernatoru olan qardaşı səslərin hesablanmasının fantastik sistemini uydurmaqla C. Buşu prezidentliyə «çəkə» bilmişdi (9,s.23-24).

Xarici siyasət sahəsində fəaliyyətinə ilk olaraq, Yaxın Şərq ölkələri ilə münasibətlərdən başlasa da, Şərqi Asiya ölkələri, xüsusilə, Çinə münasibətdə mövqeyi haqqında kiçik Corc Buş seçkiqabağı kampaniyası zamanı qısaca məlumat vermişdi. C. Buşun xarici siyasətə dair baxışlarının nisbətən aydın əks olunduğu çıxışı 1999-cu ilin 19 noyabrında R. Reyqanın Kaliforniyadakı xatirə kitabxanasındakı çıxışı idi. Bu, göstərilən istiqamətdə praktik olaraq, yeganə çıxış idi. ABŞ-ın Avrasiyadakı siyasətini nəzərdən keçirən namizəd öz təhlilinə Çindən başlamışdı. Buş administrasiyası üçün Rusiyaya nisbətən Çinin daha mühüm rolu onunla müəyyən olunur ki, bu ölkə iqtisadi yüksəlişi, uğurlu islahatlar, aktiv və müstəqil hərbi siyasət, Tayvan boğazındakı vəziyyətin ahəngini pozmaq imkanı ilə ABŞın maraqları üçün daha böyük təhlükə doğurur. Çinin inkişaf perspektivlərinin qiymətləndirilməsi və ABŞ-ın bu ölkəyə münasibətdə mövqeyi C. Buş tərəfindən ümumilikdə kifayət qədər aydın verilmişdi. Buş bildirmişdi ki, Çinin yüksəlişi qaçılmazdır və Amerika «azad» və «çiçəklənən» Çini alqışlamalıdır: «Biz aramızda konfliktin olmadığını hesab edirik və hədələmək niyyətində deyilik. Bu ölkə ilə əməkdaşlığın zəruri olduğu sahələr var: kütləvi qırğın silahlarının yayılmasının qarşısını almaq...Koreya yarımadasında sülhə nail olmaq» (10,s.243-244). Buna baxmayaraq, C. Buş aydın şəkildə bildirmişdi ki, Çin ABŞ üçün «strateji əməkdaş» deyil, «rəqib» dir (10, s.244; 4, s.47). Corc Buş ölkə ictimaiyyətinə Amerika üçün mənfi faktları və Çinin fəaliyyətini: raket-nüvə potensialının güclü inkişaf etdirilməsi, hərbi dəniz qüvvələri və aviasiyanın imkanlarının genişləndirilməsini ağılla nəzərdən keçirməyi təklif edirdi. O, qeyd edirdi ki, 1,2 milyarddan çox əhalisi olan ölkədə «hər cür fərqli düşüncənin, dini azadlıqların boğulmasına etinasız qalmaq olmaz».

ÇXR-lə iqtisadi əməkdaşlıq məsələsinə də toxunan Buş bu ölkənin Ümumdünya Ticarət Təşkilatına üzv qəbul edilməsi lehinə çıxış etmişdi. Bununla bərabər, Buş xəbərdarlıq edirdi ki, prezident seçilərsə, ÇXR rəhbərliyinin azad ticarət və bazar prinsipləri sahəsində götürdüyü öhdəlikləri ciddi nəzarətdə saxlayacaqdır.

Tayvan məsələsinə gəldikdə isə, kiçik Corc Buş respublikaçıların ənənəvi olaraq, böyük səylə təkid etdiyi prinsipial mövqeyi təsdiq etdi: «Biz vahid Çinin mövcudluğu faktını inkar etmirik. Ancaq biz Pekinin öz hakimiyyətini azad xalqlara qəbul etdirmək hüququnu rədd edirik. Tayvana özünü müdafiə üçün yardım edəcəyik» (10,s.244). «Özünü müdafiə üçün yardım edəcəyik» formulu Buşa geniş manevr sahəsi yaradırdı. Çünki o, Amerikanın yardımının şərtləri, miqyası haqqında konkret məlumat vermədi. Bu formul Ağ ev tərəfindən xeyli əvvəl silahlanma üçün qəbul olunmuş Tayvan məsələsində «strateji qeyri-müəyyənlik və fəaliyyət azadlığı» prinsipindən heç nə ilə fərqlənmirdi. Buşun bu çıxışı respublikaçılar hökümətinin ÇXR-ə münasibətinin B. Klinton xəttindən tamamilə fərqli olacağını göstərirdi (10,s.245). Belə ki, Bill Klinton 1998-ci ilin iyununda ÇXR-ə səfəri zamanı işçi dairələrin rəhbərləri qarşısında çıxış edərək, ABŞ və Asiya arasında iqtisadi əlaqələrin dinamikliyinin saxlanmasında maraqlı olduğunu və bu sahədə Honkonqun rolu haqqında danışmışdı. Tərəflər bütün mövcud problemlərə baxmayaraq, ikitərəfli münasibətləri normal diplomatik münasibətlər çərçivəsində saxlaya bilmişdilər (3,s.31). Buş 1998-ci ildə Klintonun ÇXR səfəri zamanı rəsmi olaraq, üzərinə götürdüyü «3 məhdudiyyət» haqqında heç bir fikir söyləmədi. Bunlar Amerikanın 1) müstəqil Tayvanı müdafiə etməsini; 2) Tayvanın BMT-yə üzv qəbul edilməsini; 3) «İki Çin» vəziyyətinin yaradılmasından imtina etməsini nəzərdə tuturdu. Buşun qəbul etdiyi vahid Çin tezisinə bu məhdudiyyətlər daxil olsa da, bu prinsipi təfsilatı ilə izah etmədi (10,s.244). Gələcək prezident öz çıxışında aydın şəkildə bildirmişdi ki, ABŞ-ın əməkdaşı olan, Çinə «ətrafında yerləşən» Yaponiya, Koreya respublikası, Avstraliya, Filippinlər, Tayland ilə etibarlı, sıx münasibətləri qoruyub saxlamaq niyyətindədir. Əlavə etmişdi ki, bu ölkələri Amerikanın asiya regional raketdən müdafiə sisteminə cəlb etməyi nəzərdə tutur. C. Buş Amerikanın bu ölkələrlə müttəfiqlik əlaqələrini möhkəmlətməkdə əsas məqsədinin Çinin hazırki potensial gücünün qarşısını almaq olduğunu da açıq şəkildə çatdırmışdı: «Əgər mən prezident seçilsəm, Çinə ancaq güclü demokratik ittifaqlar regionunda böyük dövlət kimi baxılacaq. Bu ölkəni heç kim hədələməyəcək, amma o, nəzarətsiz də qalmayacaq» (10,s.245).

ABŞ-ın bu mövqeyinin əsas səbəbi budur ki, ÇXR-in iqtisadi gücünün artması xuatsyaonun – yəni C.Ş.Asiya ölkələrindəki çinli emiqrantların mövqeyinin güclü olduğu ASEAN ölkələri ilə olan pançin anklavının özəyinə çevirəcəkdir. Bu cür pançin inteqrasiyasının əleyhdarları Asiya-Sakit okean iqtisadi ittifaqı çərçivəsində «Asiya – Sakit okean regionunda açıq inteqrasiya»ya çalışan ABŞ və Yaponiyadır (Арин О. «Вызов Пекина и ответ Вашингтона», Азия и Африка сегодня, 1999, №10, c.60-65,c.61).

Amerikalıları təkcə Çinin böyük dövlətə çevrilməsi deyil, həm də sosial quruluşu narahat edir. Belə ki, bazar islahatlarına baxmayaraq, bu ölkə sosialist dövləti olaraq qalır. Və əgər bu dövlət ABŞ kimi güclü bir qüvvəyə çevrilərsə, bu bütün kapitalist dünyasının ideoloji əsaslarını, quruluşun başlıca «ancaq kapitalizm və demokratik dəyərlər uğurlu inkişafın əsasıdır» şüarını sarsıda bilər (Арин О. «Вызов Пекина и ответ Вашингтона», Азия и Африка сегодня, 1999, №10, c.60-65,c.64). Hazırda xarici investisiyalar axını, ABŞ və Yaponiya ilə ticarət əlaqələrində maraqlı olan Çin bu «açıq inteqrasiya»ya qarşı çıxmır. Ancaq tədricən ətrafında inteqrasiya zonası formalaşdıqca o, öz təsərrüfat kompleksini müdafiə üçün tədbirlər görməyə məcbur olacaq. Təbii ki, Çin öz hərbi proqramları və milli təhlükəsizlik doktrinasına uyğun olaraq, öz hərbi potensialını artıracaq. ÇXR-in strateji nüvə silahı və hərbi dəniz qüvvələrinə xüsusi yer verilən hərbi potensialın modernləşdirilməsi proqramı da məhz buna yönəlmişdir. Sözsüz ki, hərbi quruculuq tempi və miqyası təkcə ölkənin daxili resurslarından deyil,

beynəlxalq vəziyyətin ümumi kontekstindən də asılıdır (Arin O. «Вызов Пекина и ответ Вашингтона», Азия и Африка сегодня, 1999, №10, с.60-65,с.61).

ÇXR rəhbərliyinin ABŞ-a münasibətinə gəldikdə, ümumiyyətlə Çinin Den Syaopinin baxışlarının təsiri altında formalaşmış hazırki milli maraqları və təhlükəsizlik doktrinalarında geostrateji planda dünya hegemonluğuna və bütün dünyaya Çin dəyərlərini və ya Çinin təcrübəsini yaymağa iddia olunmur. ÇXR ABŞ-dan fərqli olaraq, nə iqtisadi, nə də hərbi-siyasi planda öz «həyati zonalar»ını genişləndirməyə səy göstərmir. Bütün ərazi problemlərini bu ölkə danışıqlar masası arxasında həll etməyə çalışır. Çünki, XXI əsrin ortalarına kimi ÇXR-in başlıca strateji vəzifəsi ölkənin iqtisadi inkişafı və ölkə vətəndaşlarının orta həyat səviyyəsini yüksəltməkdir (1,s.64).

ABŞ-da prezident seçkiləri zamanı ÇXR-də hakimiyyətdə olan liderlər Tszyan Tszemin və Çju Juntszi daha çox qərbə meyl edirdilər. Hətta 1999-cu ilin may ayında ABŞ başda olmaqla NATO aviasiyası Yuqoslaviyadakı ÇXR səfirliyinin binasını bombaladıqdan sonra belə baş nazir Çju Juntsziyə müxalif qüvvələr onu Vaşinqtona çox böyük güzəştə getməkdə və NATO ilə münasibətlərdə kifayət qədər sərt mövqe tutmamaqda günahlandırırdılar (11,s.42). Qeyd edək ki, Belqraddakı çin səfirliyinin bombalanması zamanı Çin tərəfdən insan itkisi də olmuşdu. Amerika hökuməti və B.Klinton özü Çin hökuməti və xalqından özr istəmişdi. 2000-ci il, aprelin 8-də Amerika tərəfi Çinə hadisənin araşdırılması, günahkarların müəyyənləşdirilməsi ilə bağlı təhqiqatın nəticələri haqqında hesabat verdi. Hadisənin bir səhvin nəticəsi olması və Mərkəzi Kəşfiyyat idarəsinin 8 əməkdaşına qarşı sanksiyalar həyata keçirilməsi haqqında məlumat verilmişdi. Ancaq Çin tərəfi bunun inandırıcı görünmədiyini bildirmişdi. Beləliklə, insident iki ölkə arasında münasibətləri gərginləşdirsə də, hər iki tərəfin maraqları baxımından normal münasibətlər bərpa olunmuşdu (8,s.205).

Əvvəldə qeyd etdik ki, C. Buş seçkiqabağı kampaniyası zamanı onun komandasında güclü xarici siyasət analitikləri və ekspertlər qrupu yaradılmamışdı. Ancaq respublikaçıların R. Çeyni, K. Pauell və K. Rays kimi xarici siyasət üzrə təyin olunmuş çox görkəmli mütəxəssisləri var idi. Müharibə və sülh üzrə Huver institutunun böyük elmi işçisi və Kaliforniya ştatı, Stenford Universitetinin politologiya professoru K. Rays Respublikaçılar partiyasının namizədi kiçik Corc Buşun xarici siyasət məsələləri üzrə məsləhətçisi idi və o, prezident seçildiyi zaman dövlət katibi vəzifəsini tutacaqdı. Respublikaçılar partiyasının xarici siyasət işləri üzrə görkəmli mütəxəssislərindən biri də ABŞ dövlət katibinin keçmiş müavini, həmçinin Ağ ev apparatı rəhbərinin müavini Reyqan və ata Buş administrasiyaları zamanı məsləhətçi olmuş Robert Zellik idi. Hər iki mütəxəssisin Amerikanın görkəmli «Forin affers» jurnalında çıxmış məqalələrində Klinton administrasiyası və kiçik Corc Buşun xarici siyasət xəttinə dair dəyərli fikirlər verilmişdi. Qeyd edək ki, hər iki müəllif Klinton administrasiyasının siyasətini tənqid edirdi. Ümumiyyətlə, Rays güc siyasətinin yürüdülməsinə tərəfdardır. O, Klinton administrasiyasını ABŞ hərbi qüvvələrinin ehtiyaclarına pul ayrılmasını məhdudlaşdırmaqda günahlandırırdı. Əlavə edirdi ki, ABŞ-ın gələcək prezidenti bu zərərin əvəzini təmin etməli, hərbçilərə, hərbi hazırlığa vəsait ayrılması ilə bərabər, həm də hərbi qüvvələrin yeni silah növləri ilə təmin olunması üçün də çalışmalıdır. Rays, ABŞ silahlı qüvvələri qarşısında duran vəzifələrdən bəhs edərkən ilk növbədə göstərir ki, ABŞ Asiya-Sakit okean regionu, Yaxın və Orta Şərqdə, İran körfəzi və Avropada istənilən hərbi qüvvənin meydana çıxmasına qəti qəti cavab verməlidir (7,s.5). Rays ABŞ silahlı qüvvələrindən «dünya xilasetmə xidməti» kimi istifadə edilməsi əleyhinədir. Çünki bu onların döyüş qabiliyyətini zəiflədə bilər, digər tərəfdən də bu, ABŞ-ın başqa dövlətlərdə humanitar yardım naminə «məhdud suverenlik» anlayışını dünyaya zor gücünə qəbul etdirmə-

si haqqında fikirlər doğura bilər. O, ABŞ silahlı qüvvələri əvəzinə digər dövlətlərin qüvvələrindən istifadə etməyi, özlərinin isə bu qüvvələrə maddi-texniki və kəşviyyat yardımı göstərməsini məsləhət görür.

Çinlə münasibətlərə gəldikdə isə, K. Rays bu ölkə ilə iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə tərəfdar olsa da, Çinə mürəkkəb hərbi texnologiyalar ötürülməsi əleyhinə çıxır. Çünki hesab edir ki, bu ölkə Asiya-Sakit okean regionunda sabitlik üçün potensial təhlükədir. Rays yazırdı ki, « Çin «status-kvo» dövləti deyil və Asiyada qüvvələr nisbətini öz xeyrinə dəyişməyi istəyir. Təkcə bu, Çini Klinton administrasiyasının adlandırdığı «strateji əməkdaş» deyil, «strateji rəqib» ə çevirir. İqtisadi qarşılıqlı təsir yolu ilə Çində daxili dəyişikliklərə şərait yaratmaq, bununla Çinin hərbi gücü və məqsədlərinin qarşısını almaq vacibdir. Əməkdaşlığı davam etdirmək olar, ancaq maraqlarımız toqquşarsa, Pekinə qarşı fəaliyyətə keçməkdən heç bir zaman çəkinməməliyik» (7,s.7).

Robert Zellik isə Klinton hökümətinin insan hüquqları məsələsində Çinə güzəştə getməsini zəiflik kimi qiymətləndirirdi (7,s.10). O, da qeyd edirdi ki, «Çini ABŞ və müttəfiqlərinin himayəsində olan iqtisadi, hərbi və siyasi strukturlara inteqrasiya etdirmək, inteqrasiya mümkün olmadıqda, bu ölkədən uzaqlaşmaq lazımdır... Çin hələ dost deyil və əlbəttə, əməkdaş da deyil. Ancaq onunla düşmən olmaq olmaz. Bu ölkəyə ümumi maraqların genişləndirilməsinə və ziddiyyətlərin aradan qalxmasına doğru aparan pillələri anlatmaq lazımdır» (7,s.13).

Danışılan dövrdə ABŞ-ın Çinlə münasibətləri barədə nüfuzlu Amerika jurnalı «Forin affers»də dərc olunmuş daha iki məqalə diqqəti cəlb edir. ABŞ-də beynəlxalq münasibətlər üzrə Şuranın elmi əməkdaşı Pol Hir öz məqaləsində yazırdı ki, «ABŞ-ın Çin siyasətini işləyib hazırlayanlar uzun müddətdir ki, iki qrupa bölünür. Bir qism belə hesab edir ki, Çin mütləq ABŞ-ın həyati maraqları üçün təhlükə doğuracaqdır. Bu səbəbdən də onun qarşısı alınmalı və təcrid edilməlidir. Digər qrupun fikrincə, iki ölkə arasındakı münasibətlərdə qarşılıqlı təsirə nail olunarsa, toqquşma mütləq olmaya bilər. Ancaq hər iki qrup üçün Çin liderlərinin ABŞ-a yanaşması anlaşılmaz olaraq qalır. Ümumi rəyə əsasən, Pekinin Vaşinqtona münasibəti Çin rəhbərliyində fraksiyalar arası mübarizə ilə müəyyən edilir. Ancaq bu mühakimə yanlış və təhlükəlidir. O, Pekinin xarici siyasətinin təməl məqsədlərini hesaba almır və Vaşinqtonun Çin rəhbərliyindəki ziddiyyətlərdən öz xeyrinə istifadə etmək imkanlarını yüksəldir. Ən pisi isə budur ki, bu nəzəriyyə Pekinin öz dünyaya baxışını və dünyadakı yerini yenidən nəzərdən keçirməsi faktını nəzərə almır» (2, s.3).

Çin liderlərinin mövqeyi məsələsinə gəldikdə isə, ÇXR Dövlət Şurasının mətbuat dəftərxanası tərəfindən dərc olunmuş «2000-ci ild Çinin Milli müdafiə» si adlı Ağ kitabda göstərilirdi ki, Çin Milli mıdafiə məsələlərində müdafiə siyasətinə əməl edir, dövlət suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyini qətiyyətlə qoruyur (5, s.59). Əlavə olunurdu ki, «Çin öz ordusunun modernləşməsini yalnız müdafiə məqsədilə həyata keçirir», Çinin «müəyyən qədər nüvə silahı arsenalı da yalnız müdafiə məqsədi daşıyır» (5,s.61).

Ağ kitabda Çin ABŞ və Yaponiyanı, onların regional raketdən müdafiə sistemi proqramı üzrə birgə araşdırmaları ilə əlaqədar tənqid edirdi. O, həm də istənilən dövlətin bu və ya digər formada Tayvanı hərbi əməliyyatlar teatrının raketdən müdafiə sistemi zonasına cəlb etmək səylərinə qarşı çıxırdı (5,s.71). Ağ kitabda həm də qeyd olunurdu ki, Milli Raketdən Müdafiə sisteminin yaradılması ilə «beynəlxalq birliyin nüvə silahının yayılmasının qarşısının alınması və silahlanmaların məhdudlaşdırılmasına yönəlmiş səylərinə zərbə vuruldu» (5,s.60).

P.Hir Vaşinqtona Çinin milli maraqları olan sahələrdə Çin rəhbərliyinin güzəştlərə gedəcəyinə ümid bəsləməməyi məsləhət görürdü. O, belə bir ümumi nəticəyə gəlirdi ki, ABŞ-ın Çin rəhbərliyi daxilində bu ölkəyə münasibətdə yürüdülən siyasəti ətrafında gedən mübahisələr və ziddiyyətlərdən öz maraqları üçün istifadə etmək imkanı yoxdur (2,s.5). Hir əlavə edirdi ki, nisbətən az əhəmiyyət daşıyan bəzi məsələlərdə, misal üçün ticarət və insan hüquqları məsələlərində güzəştlərə də hazır olmalıdır (2, s.6).

Buşa gəldikdə, onun seçkilər ərəfəsində terrorizm məsələsini və raketdən müdafiə sistemləri məsələlərini ortaya atmasından bəlli olurdu ki, o, xarici siyasətində zorakı fəaliyyətə üstün yer verəcək. Əvvəldə də qeyd etdiyimiz kimi onun qeyri - müəyyən, qəribə ritorikası, dini ideyaları səsləndirmək kimi fərqli davranışları onun digər prezidentlər kimi ənənəvi siyasəti davam etdirmək deyil, çox güman ki, ona dayaq olmuş silah istehsalçılarının mənafeyi naminə çalışmaq niyyətindən xəbər verirdi.

### *ƏDƏBİYYAT:*

1.Арин О. Вызов Пекина и ответ Вашингтона // Азия и Африка сегодня, 1999, №10, с.60-65
2.«Американские эксперты об отношениях с Китаем», /Реферат по материалам «Форин аффэрс»/, КОМПАС» (Комментарии, прогнозы, анализ, события), 2000, № 30, с.3-11
3.Барский К. Дракон и жемчужина //Азия и Африка сегодня, 1999, № 10, с.27-33
4.Бергер Я. Возвышение Китая //Международная жизнь, 2005, № 9, с.47-59
5.Белая книга «Национальная оборона Китая в 2000 году», /Федорук В., корр. ИТАР-ТАСС в Пекине/, КОМПАС, 2000, № 43, с.59-70
6.Брокен П. Второй ядерный век // КОМПАС, 2000, №5, с.8-16
7.«Внешняя политика США глазами экспертов республиканской партии», /«Форин аффэрс», январь-февраль/, «КОМПАС», №2, с.3-14
8.Китай: факты и цифры. Москва , 2000, 205 с.
9.Кременюк В. Внешняя политика США в год выборов // Международная жизнь, 2004, № 3,
10.Политика США в меняющемся мире, М.,2004, 333 с.
11.Савенков Ю. Премьер Госсовета Чжу Жунцзи // Азия и Африка сегодня, 1999, № 10,с.39-42,
12.Шимановский. В.В. Республиканская партия, dic.academic.ru/dic.nsf/bse/127265-30k
13.Ширяев Б.А. Внешняя политика США, Издательство С. – Петербургского университета , 2007, 442с.

**УЛЬКЯР АЛИЕВА**
*Аспирантка института Востоковедения АНАН Азербайджана*

## АМЕРИКАНСКО-КИТАЙСКИЕ ОТНОШЕНИЯ ВО ВНЕШНЕПОЛИТИЧЕСКОЙ ПРОГРАММЕ РЕСПУБЛИКАНСКОЙ ПАРТИИ ПЕРЕД ПРЕЗИДЕНТСКИМИ ВЫБОРАМИ 2000-ГО ГОДА

В статье рассматриваются американско-китайские отношения во внешнеполитической программе республиканской партии перед президентскими выборами 2000-го года. Говорится о характере двухпартийной системы США и о главной стратегической цели американского государства. Автор приводить разные мнения исследователей и официальных лиц республиканской администрации о том, как новая администрация должна строить свою китайскую политику.

**ALIYEVA ULKER**
*the research worker of the Institute of Oriental Sciences of the ANAS*

## THE AMERICAN – CHINESE RELATIONS IN A FOREIGN POLICY PROGRAMME OF THE REPUBLICAN PARTY BEFORE PRESIDENTAL ELECTIONS OF 2000 YEAR

In article are considered the American – Chinese relations in a foreign policy programme of the Republican Party before presidental elections of 2000 year. Is spoken about character of two-party sistem of the USA and about main strategic targets of American state. The author provides different opinions of researchers and officials of republican administration, how Bush's administration should build the Chinese policy.

***Rəyçilər: t.e.d.M.Fətəliyev, t.e.d.C.Həsənli.***
***AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Elmi Şurasının 17 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***